Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası
Azərbaycan Qeyri-Hökumət Təşkilatları Koalisiyası

For Improving Transparency in Extractive Industries
The Coalition of Azerbaijan Non-Goverment Organization

# "MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIĞIĞN ARTIRILMASI" KOALİSİYASININ İNFORMASİYA BÜLLETENİ

## № 16

## Redaksiya heyəti

**Redaktor:**
Dünya Sakit

**Məsul katib:**
Süheylə Cəfərova

**Tərcüməçi:**
Nərmin Mirzəyeva

**Ünvan:**
AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə

**Tel:** 598 44 31, Faks: 598 44 31
**Mob.:** 357 04 62
**E-mail:** office@eiti-az.org

## Mündəricat

- Neftin qiyməti artsa da, Azərbaycanın gəliri artmır. Şəffaflıq Koalisiyası hökumət və şirkətlərdən izahat istəyir (2)
- Şəffaflıq Təşəbbüsü üzrə növbəti hesabat mərhələsi başlandı (5)
- Qiymətləndirmə (validation) prosesi üzrə İşçi Qrup fəaliyyətə başlayıb (5)
- Koalisiya ekspertlər arasında müsabiqə elan edib (6)
- Koalisiya EİTİ İdarə Heyəti üzvlüyünə namizədini müəyyənləşdirib (7)
- Koalisiya Şurasının əlaqələndiricisi Norveçin nazir müavini ilə görüşüb (7)
- Qadınlar üçün neft gəlirləri mövzusunda dəyirmi masalar təşkil edilib (7)
- Neft Şirkətinin sosial xərcləri müzakirə olunub (8)
- Neft gəlirləri ilə bağlı sorğu keçirilib (9)
- Koalisiyanın sorğuları cavablandırılıb (12)
- EİTİ İdarə Heyətinin iclası keçirilib (12)
- Neft Fondunun 2007-ci il büdcəsinin xərcləri kəsirlə icra olunub (13)
- Neft Fondunun xərcləri sürətlə artırılır (13)
- Qazın maya dəyəri azalıb, neftinki isə artıb (14)
- bp şirkəti Rusiyada problemlə üzləşib (17)

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Neftin qiyməti artsa da, Azərbaycanın gəliri artmır
## Şəffaflıq Koalisiyası hökumət və şirkətlərdən izahat istəyir

İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası Azərbaycan hökuməti və ölkənin neft-qaz sektorunda işləyən şirkətlərin ödəmələrinə dair 8-ci hesabatla (2007-ci ilin yekunları üzrə) bağlı rəyini açıqlayıb. Koalisiya hesabatın təqdimi və ona auditor rəyinin verilməsi mərhələlərinə uyğun olaraq 3 istiqamət üzrə mövqeyini müəyyənləşdirib. Bura auditor rəyinin hazırlanması və təqdimi ilə əlaqədar olaraq prosedur məsələlərinin dəyərləndirilməsi, ayrıca 8-ci hesabatın, eyni zamanda indiyədək aparılan bütün hesabatların təhlilərindən əldə olunan nəticələr və digər ölkələrlə müqayisələr daxildir.

Koalisiya hesabatların təqdim edilməsi müddətinin yenə də ləngidilməsindən narahatlığını ifadə edərək, müstəqil mühasiblərin hesabatının Memorandumda nəzərdə tutulandan 2 ay sonra təqdim olunmasını mənfi hal kimi qiymətləndirir. Bildirilir ki, belə yubanma bir daha təkrar olunacağı təqdirdə, Koalisiya bunu Memorandum tələblərinin pozulması və öhdəliklərin vaxtında yerinə yetirilməməsi faktı kimi dəyərləndirəcək.

İctimai birlikləri narahat edən digər məqam hesabatlarda olan uyğunsuzluqların say çoxluğu və təkrarçılığıdır. Koalisiya bu vəziyyəti hesabatları hazırlayan tərəflərin məsələyə kifayət qədər ciddi münasibət göstərməməsi kimi dəyərləndirir və hesab edir ki, Memorandumun təkmilləşdirilməsinə dair rəsmi olaraq təqdim etdiyi təkliflər paketində olan və müzakirələr üçün tərəflərin işçi qrupunun yaradılmasını nəzərdə tutan təklif bir daha müzakirəyə çıxarılmalıdır.

Hesabatların təhlili üçün şirkətlərin fəaliyyətini xarakterizə edən zəruri informasiyalara çıxış problemli olaraq qalır: "İctimai Birliklərin MSŞA Koalisiyasının informasiya sorğusu məqsədilə bp, "Statoil" və ARDNŞ-ə ünvanladığı məktubların hələ də cavablandırılmaması narahatçılığı daha da artırır. Koalisiyanın həmin şirkətlərə ünvanladığı məktubun cavablandırılmaması "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması kimi qiymətləndirilir və ictimai diqqətə təqdim olunur. Həmin qanunun 24.1-ci maddəsinə görə, informasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilməlidir. Lakin adı çəkilən şirkətlərə ünvanlanan sorğular 9 aydır ki, cavabsız qalır."

Koalisiyanın Analitik Qrupu tərəfindən aparılan araşdırmalarda 2004-2007-ci illər üzrə hökumətin illik hesabatlarında (Forma C) olan rəqəmlərin müqayisəsi zamanı xüsusi izahat tələb edən bir sıra məsələlər ortaya çıxıb: "Yerli şirkətlərin hökumətə ödədikləri mənfəət vergisinin həcminin dinamikada təhlili onun normal tendensiyadan kənara çıxdığını təsdiq edir. Belə ki, yerli şirkətlərin hökumətə ödədikləri mənfəət vergisinin həcmi 2004-cü ildə 66.7 mln.AZN olduğu halda, 2005 və 2006-cı illərdə kəskin azalmış (müvafiq olaraq 46.9 və 29.4 mln.AZN), 2007-ci ildə isə 2006-cı illə müqayisədə 3.3 dəfə artmışdır. Bu illərdə yerli şirkətlərdə neft hasilatının kəskin azalması baş verməməsi, neftin qiymətlərinin daima artdığı bir şəraitdə yerli şirkətlərin ödədikləri mənfəət vergisinin məbləğində olan belə dəyişikliklərin səbəbi barəsində ictimaiyyətə açıqlama verilməsi vacibdir. Digər tərəfdən, yerli şirkətlərin hökumətə ödədikləri mədən vergisinin ildən-ilə azalması da izahat tələb edir. Belə ki, 2004-cü ildə yerli şirkətlərin hökumətə etdiyi belə ödənişlərin məbləği 392.2 mln.AZN olduğu halda, sonrakı illər məbləğ hər il azalmış və 2007-ci ildə 165.3 mln.AZN olmuşdur. Son 3 illik dövrün təhlili əsasında aparılan araşdırmalar zamanı aydın olmuşdur ki, yerli şirkətlərin hökumətə ödədikləri digər vergilər üzrə də daxilolmalarında ziddiyyətli məqamlar mövcuddur. Belə ki, bu ödəniş üzrə yerli şirkətlərin hökumətə verdiyi vəsait 2004-cü illə (164.1 mln.AZN) müqayisədə 2005-ci ildə (400.3 mln.AZN) 2.4 dəfə

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

artdığı halda, 2006 və 2007-ci illərdə 2005-ci illə müqayisədə 2 dəfəyədək azalmışdır. Belə azalmanın hansı səbəbdən baş verməsi də izahat tələb edir."

Azərbaycan mənfəət neftinin bölgüsündə əldə etdiyi pay elan edilmiş həddən 2 dəfəyədək azdır. Koalisiya ekspertlərinin təhlil olunan 2003-2004-cü illər üzrə apardıqları müqayisələr göstərir ki, Azərbaycan mənfəət neftindən hasilatın pay bölgüsü kontraktında nəzərdə tutulduğu qədər pay götürə bilməyib. Bunu həmin dövrün məlumatıarı əsasında tərtib olunmuş analitik cədvəlin məlumatları əsasında isbat etmək mümkündür (Cədvəl 1.).

***Cədvəl 1. AÇG yatağının işlənməsi layihəsi üzrə mənfəət neftinin satışından əldə olunan gəlirlər, xərclər və Azərbaycana naturada düşən pay (2003-2007-ci illərdə)***

| İllər | Mənfəət neftinin satışından gələn gəlirlər | Mənfəət neftinin satışından gələn gəlirlər (naturada), mln bar | AIOC-nin neft ixracı (mln bar) | Capex+opex mln $ | Neft ixracatından Azərbaycana naturada düşən pay (%-lə) |
|---|---|---|---|---|---|
| 2007 | 1675 AZN<br>$1970 mln | 30,349 | 217,2 | 3267 | 13,9 |
| 2006 | 896,6 AZN<br>$1005,4 mln | 19,03 | 155,1 | 2711 | 12,3 |
| 2005 | 542,6 AZN<br>$579,9 mln | 14,3 | 97,6 | 2865 | 14,6 |
| 2004 | 258,9 AZN<br>$263,8 mln | 6,7 | 50,6 | 2781 | 13,2 |
| 2003 | 173,8 AZN<br>$176,9 mln | 6,6 | 47,3 | 2194 | 13,9 |

**Mənbələr:**
1) Neft hasilatı və ixracı – AİOC-nin mətbuat üçün açıqlamaları ("Turan"da dərc edilənlər)
2) Neft Fondunun gəlirləri – ARDNF-nun rəsmi hesabatları
3) Capex+opex - AİOC-nin illik ictimaiyyət üçün açıqlamaları
4) Neft ixracatından Azərbaycana naturada düşən pay - ekspertlərin hesablamaları."

Cədvəldən görünür ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (AİOC) "Azəri" və "Çıraq" dəniz yataqlarından 2003-cü ildən başlayaraq neft ixracını kifayət qədər artırmasına baxmayaraq, Azərbaycan hökumətinə çatan mənfəət neftinin natura ifadəsində payı heç də ona adekvat səviyyədə dəyişməyib: "Diqqəti çəkən bir məqam ondan ibarətdir ki, 2003-cü ildə konsorsiumun neft ixracında Azərbaycan hökumətinə düşən payın natural ifadədə xüsusi çəkisi 13,9% olub. Qeyd edək ki, 2003-cü ilin yekunlarına görə, Brent tipli neftin dünya bazarında orta satış qiyməti (mənbə - bp World Statistical Review of World Energy, page 16) 28,83 dollar olduğu halda, 2007-ci ildə bu göstərici 251% artaraq 72,39 dollar təşkil edib. Digər tərəfdən, artıq 2006-cı ilin yekunlarına görə konsorsium Azərbaycan Respublikası Vergilər Nazirliyinə mənfəət vergisi ödəməyə başlayıb, yəni xarici şirkətlərin qazancı onların qoyduqları sərmayələri üstələyib. İkinci bir tərəfdən, cədvəldən göründüyü kimi, konsorsiumun ümumi xərclərində (kapital və əməliyyat xərcləri) hesabat dövrü ərzində illər üzrə kəskin fərqlər də müşahidə edilməyib. Təkcə 2007-ci ildə "Faza-3" (dərin sulu "Günəşli" yatağının işlənməsi) layihəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq xərclər 3 milyard dolları ötüb. Ancaq dünya bazarında neftin qiymətinin artması ilə əlaqədar konsorsiumun 2007-ci ildəki gəlirləri (15,7 mlrd dollar – ekspert hesablaması) onun xərclərini demək olar ki, 5 dəfə üstələyib. Belə isə nədən mənfəət neftinin bölünməsində Azərbaycanın payı artmayıb və faktiki olaraq onun xüsusi

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

çəkisi 2003-cü ildəki 13,9% səviyyəsində qalıb? Baxmayaraq ki, həm konsorsium, həm də Azərbaycan hökuməti dəfələrlə vurğulamışdılar ki, 2007-ci ildə Azərbaycan mənfəət neftinin bölgüsündə 30%-lik həddə çatıb."

Koalisiyanın Analitik Qrupu tərəfindən Monqolustan və Qazaxıstan MHŞT hesabatı ilə Azərbaycanda tətbiq olunan hesabatların müqayisəli təhlili aparılıb. Məlum olduğu kimi, MHŞT təşəbbüsünə gec qoşulan iki qonşu ölkə - Monqolustan və Qazaxıstan da artıq özlərinin ilk hesabatlarını açıqlayıblar. Həmin ölkələrin hesabatları ilə Azərbaycandakı hesabatı müqayisə edən Qrup Azərbaycanın xeyrinə olmayan nəticə ilə üzləşib: "Qonşu ölkələrin hesabatları, xüsusən Monqolustanın hesabatı Azərbaycanla müqayisədə xeyli dərəcədə keyfiyyətli görünür. Monqolustanın MHŞT hesabatı Təşəbbüsün məramından irəli gələrək, sözün əsl mənasında ətraflı, aydın və müqayisəli tərtib edilmişdir. 25 dağ-mədən şirkətinin qoşulduğu bu Təşəbbüs çərçivəsində iki istiqamətdə - həm ayrı-ayrı ödəmələrin bütün növləri üzrə təfərrüatı ilə informasiya, həm də şirkətlərin fərdi qaydada dövlətə ödəmələri barədə kifayət qədər dolğun informasiyanın təqdim edilməsi nəinki Təşəbbüsün əsas tərəfi olan vətəndaş cəmiyyətində, ümumiyyətlə, istənilən kənar müşahidəçidə mövzu ilə bağlı demək olar ki, tam təsəvvür yaradır. Monqolustanda ödəmələrin həm də ünvanlı şəkildə hansı ierarxiya qurumlarina (nazirlik, yerli, əyalət, məktəb və s.) həyata keçirildiyinin açıqlanması vəsaitin sonrakı taleyi haqqında tam informasiya almağa imkan yaradır."

Ən maraqlısı isə budur ki, Monqolustanda şirkətlərin ödəmələri və hökumətin aldığı vəsait arasında fərq bizimki kimi simvolik və texniki xarakter daşımır, bəzi halda hətta 20%-i ötür. Bu fərqlərin cüzi hissəsi pozitiv xarakter daşıyır (şirkətlərin ödəməsi hökumətin aldığı vəsaiti üsələyir). Əksər halda, fərq neqativdir, yəni hökumətin göstərdiyi rəqəm şirkətin müvafiq rəqəmindən xeyli dərəcədə aşağıdır: "Əslində MHŞT-nin ən böyük faydası məhz budur və hökumətə yalnız bundan sonra əsaslandırılmış ciddi ittiham irəli sürmək imkanı yaranır. Qazaxıstan nümuməsinin bizdən müsbət fərqliliyi ondadır ki, burada hasilat şirkətlərinin bütün vergiləri, o cümlədən korporativ gəlir vergiləri və sosial vergilər də hesabata daxil edilmişdir. Qeyd etmək lazımdır ki, məhz korporativ gəlir vergisi üzrə, 3.29 mln. tenge mənfi fərq yaranmışdır ki, bununla bağlı Qazaxıstan QHT Koalisiyası açıqladığı rəydə özünün haqlı narahatçılığını ifadə etmişdir və bu məsələnin artıq məhkəmə işi olduğunu vurğulamışdır. Ümumilikdə Qazaxıstan nümunəsi Monqolustan ilə müyasıədə zəif təsir bağışlayır (qeyd edək ki, burada audit şirkəti bizə yaxşı tanış olan "Deloitte" şirkətidir), amma burada da qeydə alınan fərqin yalnız texniki deyil, bəzi hallarda ciddi xarakter daşıdığı sezilir. Beləliklə, bu iki ölkənin hesabatları ilə tanış olduqdan sonra bir daha o qənaətə gəlirik ki, Azərbaycanda hesabat formalarının təkmilləşməsinə böyük ehtiyac var."

İctimai birliklərin 8-ci hesabat üzrə aşağıdakı təkliflərin nəzərə alnmasını tövsiyə edir:

- Müstəqil mühasiblərin hesabatında hökumətin, habelə yerli və xarici şirkətlərin hesabatlarının Memorandumda müəyyən edilən müddətdə təqdim edilib-edilməməsi və ya ləngidilmə olduğu təqdirdə bunun səbəbləri barədə izahatın öz əksini tapması məqsədəuyğundur;
- Müstəqil audit şirkəti uyğunsuzluqların aradan qaldırılması müddətinin azaldılmasına və yekun hesabatın vaxtında təqdim edilməsinə diqqəti artırmalıdır.
- Anlaşma Memorandumunun tələblərindən irəli gələrək, mövcud hesabat sisteminin təkmilləşdirilməsi məqsədilə tərəflər arasında yeni müzakirələrə start verilməlidir;

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

- Hökumətin, yerli və xarici şirkətlərin təqdim etdikləri hesabatlarda ölçü vahidlərində olan, eləcə də metodoloji, həmçinin terminoloji xarakterli fərqlərin aradan qaldırılması istiqamətində zəruri işlər sürətləndirilməlidir;
- Neft ixracatından Azərbaycana naturada düşən payın Kontraktla təsdiq olunmuş hasilatın pay bölgüsü sxemindən kənarlaşmasının səbəblərinə izahat gətirilməlidir;
- Şirkətlərin hesabatlılıq sistemində bilməyərəkdən yaranmış problemin həlli məqsədilə məsul heyət üçün kurslar təşkil olunmalıdır;
- Yerli şirkətlər, xüsusilə ARDNŞ onların hökumətə vergi ödəmələri üzrə hesabatlarında olan ziddiyyətlərə aydınlıq gətirməli və ictimaiyyətə zəruri açıqlamalar verilməsini təmin etməlidirlər.

Bununla yanaşı, İctimai Birliklərin MSŞA Koalisiyası bundan əvvəlki hesabatlar üzrə verdiyi rəylərində olan tövsiyələrin hələ də nəzərə alınmadığını əsas tutaraq həmin tövsiyələrə diqqətin artırılması zəruriliyini bir daha Hökumət Komissiyasının diqqətinə çatdırır.

✵ ✵ ✵

## Şəffaflıq Təşəbbüsü üzrə növbəti hesabat mərhələsi başlandı

Azərbaycanda Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə 9-cu hesabatın hazırlanması mərhələsinə sart verilib. Təşəbbüsün icrası üzrə Hökumət Komissiyasından verilən məlumata görə, bu barədə qərar Memorandum imzalamış tərəflərin - MHŞT üzrə Hökumət Komissiyası, Azərbaycanda hasilat sənayesi ilə məşğul olan yerli və xarici şirkətlər və qeyri-hökumət təşkilatlarının Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası - nümayəndələrindən ibarət Seçim Qrupunun avqustun 7-də keçirilmiş iclasında qəbul edilib.

Qərara əsasən 2008-ci ilin birinci yarısını əhatə edəcək hesabatların təhlil edilərək tutuşdurulması üçün audit şirkətinin seçilməsi məqsədilə müsabiqə elan olunub. Qrup bu müsabiqədə iştirak etmələri üçün Azərbaycanda fəaliyyət göstərən və dünyada tanınmış nüfuzlu beynəlxalq audit şirkətlərinə bildiriş göndərmək barədə qərar qəbul edib.

Avqustun 19-da Seçim Qrupunun növbəti iclası keçirilib. İclasda audit şirkətlərindən göndərilən təkliflər qiymətləndirilib və onların arasından "Moore Stephens" şirkəti seçilib. Beləliklə, hökumət və şirkətlərin 2008-ci ilin ilk 6 ayındakı ödəmələri əhatə edəcək hesabatlarını bu şirkət tutuşduraraq, rəy verəcək.

✵ ✵ ✵

## Qiymətləndirmə prosesi üzrə İşçi Qrup fəaliyyətə başlayıb

İyunun 17-də Azərbaycan Respublikası Dövlət Neft Fondunda Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) tərəflərinin – MHŞT üzrə Hökumət Komissiyası, Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) QHT Koalisiyası və mədən sənayesində çalışan yerli və xarici şirkətlərin nümayəndələrinin birgə toplantısı keçirilib.

İclasda qiymətləndirmə prosesinə hazırlıq, Seçim Qrupu tərəfindən Beynəlxalq İdarə Heyətinin təyin etdiyi 7 şirkət arasından qiymətləndirmə prosesini həyata keçirəcək şirkətin

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

seçilməsi kimi məsələlər, o cümlədən MSŞA Koalisiyası tərəfindən Şəffaflıq Təşəbbüsü üzrə Qarşılıqlı Anlaşma Memorandumuna təklif edilən dəyişikliklər müzakirə edilib. Müzakirələrdən sonra QHT Koalisiyasının təklifi əsasında qiymətləndirmə prosesi ilə bağlı məsələlər üzrə üçtərəfli işçi qrup yaradılıb. Koalisiya Şurasının qərarı ilə həmin qrupda QHT-ləri Qubad İbadoğlu, Sabit Bağırov və İnqilab Əhmədov, Hökümət Komissiyasını 1 nəfər İqtisadi İnkişaf Nazirliyindən, 1 nəfər Neft Fondundan və 1 nəfər də Vergilər Nazirliyindən olan nümayəndə, şirkətləri isə BP, Şevron və ARDNŞ-nin nümayəndələri təmsil edir.

İşçi qrupun ilk iclası iyulun 4-də keçirilib. İclasda Qrupun fəaliyyət planı müəyyənləşdirilib. İşçi qrupu validatorun seçilməsi ilə bağlı proseslərə məsul olan bir qrupdur və güman olunur ki, validatorun seçiminə qədər fəaliyyət göstərəcək. Qeyd edək ki, validatorun seçilməsində əsas meyar kimi “Audit şirkətinin seçilməsi meyarları və fəaliyyət dairəsi”nin rəhbər tutulması təklif olunurdu. Həmin təklifə əsasən qiymətləndirici şirkət müəyyənləşdirilərkən onun verdiyi təklifin keyfiyyətinə maksimum 30 xal; qiymətləndirmə prosesinə cəlb ediləcək mütəxəssislərin səviyyəsinə maksimum 10 xal; işin başa çatdırılması üçün təklif olunmuş müddətə maksimum 10 xal və təklifin maliyyə dəyərinə maksimum 50 xal verilməsi nəzərdə tutulurdu. İlk iclasda Koalisiya nümayəndələri bu qaydalarda mütəxəssislərin səviyyəsinə cəmi 10 xalın müəyyənləşdirilməsinə etiraz edərək, bu qiyməti 30 xala qaldırmağı təklif ediblər. Müzakirələrdən sonra xalın 15-ə qaldırılmasına dair razılaşma əldə olunub. Bundan əlavə, Koalisiyanın təklifi ilə iclasda Azərbaycanda imzalanmış 3 tərəfli Memorandumun qiymətləndirmə prosesində nəzərdə tutulan Fəaliyyət Planını əvəz edib-etməməsi ilə bağlı EİTİ İdarə Heyətinə məktub göndərilməsi də qərara alınıb

✵ ✵ ✵

## Koalisiya ekspertlər arasında müsabiqə elan edib

Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyası Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun maliyyələşdirdiyi proqram fəaliyyəti istiqamətləri üzrə əlaqələndirici-ekspert seçimi ilə bağlı müsabiqə elan edib. Koalisiya Şurasının iyulun 25-də keçirilən iclasında qəbul edilmiş qərara əsasən Qiymətləndirmə sisteminin yaradılması, ekspert qiymətləndirilməsi və fərdi hesabatlılıq; Neft Fondu haqqında qanun layihəsinin hazırlanması və populyarlaşdırılması; Qeyri-neft və qeyri-qaz ehtiyatlarının EİTİ prosesinə cəlb edilməsi üzrə təkliflərin hazırlanması; Azərbaycanda EİTİ qiymətləndirilməsi və hesabatın hazırlanması istiqamətləri üzrə əlaqələndirici-ekspert olmaq istəyən şəxslər avqust ayının 25-nə qədər öz təkliflərin təqdim edəcəklər. Daha sonra Şura həmin təklifləri qiymətləndirərək qalibləri müəyyənləşdirəcək.

Qeyd edək ki, əlaqələndirici-ekspertliyə yalnız Koalisiyanın ACİYF tərəfindən bu layihə üçün seçilmiş ekspert bankının üzvləri və hərə yalnız 1 istiqamətə iddia edə bilərlər. İddiaçı ekspertlər musabiqədə iştirak etmək üçün aşağıdakı məlumatları təqdim edirlər:

- Seçdiyi istiqamət üzrə araşdırma konsepsiyasının qisa icmalı (1 səhifədən çox olmayaraq);
- Seçdiyi istiqamət üzrə fəaliyyəti planı (cədvəl şəklində icra müddəti və məsul şəxslər göstərilməklə)”
- Seçdiyi istiqamət üzrə araşdırmaya cəlb edəcəyi ekspertlərin siyahısı.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

## Koalisiya EİTİ İdarə Heyəti üzvlüyünə namizədini müəyyənləşdirib

Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə İdarə Heyətində vətəndaş cəmiyyətini təmsil edəcək yeni əvəzedici üzvlərin seçilməsi prosesi başlanıb. Seçimlə bağlı müsabiqəni Beynəlxalq Ödədiyini Açıqla Koalisiyası həyata keçirir. Azərbaycanda Təşəbbüsün icrasında 3 əsas tərəfdən biri olan Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyası bu prosesə öz namizədi ilə qatılıb.

Koalisiya Şurasının 25 iyul tarixli iclasında məsələ müzakirə olunub. Şuranın qərarı ilə Azərbaycan vətəndaş cəmiyyəti adından seçimdə yalnız 1 nəfərin namizədliyinin dəstəklənməsi məqsədəuyğun sayılıb. Həmin şəxsin müəyyənləşdirilməsi ilə bağlı müzakirələrdən sonra Şuranın əlaqələndiricisi olan Qubad İbadoğlunun namizədliyi üzərində dayanılıb. Keçirilən səsvermə nəticəsində Q. İbadoğluna Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçisi olaraq seçimlərə qatılmaq üçün Koalisiya adından səlahiyyət verilib.

✵ ✵ ✵

## Koalisiya Şurasının əlaqələndiricisi Norveçin nazir müavini ilə görüşüb

Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının əlaqələndiricisi Qubad Ibadoğlu iyunun 2-də Norveçin neft və energetika nazirinin müavini xanım Liv Monika Stubholdtun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüş zamanı Azərbaycanın mədən sənayesində, konkret olaraq, neft-qaz sektorunda Beynəlxalq Şəffaflıq Təşəbbüsününun tətbiqində qərarlaşmiş tendensiyalar, müşahidə olunan dəyişikliklər, nailiyyətlər və çətinliklər müzakirə olunub. Qubad İbadoğlu Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiysının gələcək planları ilə bağlı xanım Liv Monika Stubholdtun başçılıq etdiyi nümayəndə heyətini məlumatlandırıb.

Görüşdə Norveç Krallığının Azərbaycandakı səfiri cənab Jon Ramberq, “StatoylHydro” şirkətinin hökümət və ictimai əlaqələr üzrə meneceri xanım Baiba Anda Rubesa, Norveçin Neft və Energetika Nazirliyinin baş direktor müavini Odd Sverre Haraldsen və digər şəxslər iştirak edib.

✵ ✵ ✵

## Qadınlar üçün neft gəlirləri mövzusunda dəyirmi masalar təşkil edilib

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının Norvec Krallığının Azərbaycandakı səfirliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Neft gəlirlərinin xərclənməsində şəffaflığın artırılması" layihəsinin bir komponenti qadınların mədən sənayesində şəffaflığın artırılması proseslərinə cəlb edilməsi ilə bağlı olub. Layihənin bu istiqamətinin reallaşmasına məsul olan Qadınlar Arasında Həmrəylik İctimai Birliyi 2008-ci ilin mart-iyul aylarında Göyçay, Xaçmaz, Quba, Mingəçevir və Bakı şəhəri daxil olmaqla 5 regionda qadınların iştirakı ilə Dəyirmi Masa keçrib. Tədbirlərdə ekspertlər (Sabit Bağırov, Mehriban Vəzir, Əskər Əhməd, Əlməmməd Nuryev) tərəfindən Azərbaycanın neft strategiyası, onun yaxın və orta müddətli dövrlərdə hədəfləri; Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün prinsipləri və öhdəlikləri; Neft kontraktları və BTC; Neft Fondunun ictimai vəsaitlərin formalaşmasında və idarəedilməsində rolu; Regionlarin sosial-iqtisadi

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

problemləri və onun həllində neft gəlirlərinin rolu mövzusunda təqdimat edilib. Daha sonra isə iştirakçıların sualları cavablandırılıb, müzakirələr aparılıb.

Tədbirlərdə ümumilikdə 170 qadın iştirak edib. Ekspertlərə ünvanlanan sualların analizi göstərib ki, onları maraqlandıran əsas məsələlər neft gəlirlərinin hara və necə xərclənməsi, vəsaitlərin xarici banklarda saxlanması, neft pullarının yoxsulluğun azaldılmasına rolu və sairdir.

Qeyd edək ki, dəyirmi masalara dair məlumatlar "Yeni Musavat", "Ekspress", "Bakı-Xəbər", "Azadlıq", "Paralel" və "Bizim Yol" qəzetlərində dərc olunub.

## Neft Şirkətinin sosial xərcləri müzakirə olunub

Avqustun 1-də Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının üzvü olan Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı Dövlət Neft Şirkətinin (SOCAR) sosial xərcləmələrinə həsr olunmuş Dəyirmi Masa təşkil edib. "Kaspian Plaza"nın konfrans zalında keçirilən tədbirdə Koalisiya üzvləri, ekspertlər və ARDNŞ Sosial İnkişaf İdarəsinin nümayəndələri iştirak ediblər.

Dəyirmi Masada Koalisiya üzvü, neft sənayesi üzrə ekspert İlham Şaban təqdimatla çıxış edib. Onun sözlərinə görə, SOCAR işçilərinin sayına görə dünyanın ən böyük neft şirkətlərinə aid edilir: "Maraqlısı odur ki, son illər işçilərin sayı durmadan artır. Bu da dünya bazarında xammalın qiymətinin bahalaşması səbəbindən şirkətin gəlirlərinin artmasına baxmayaraq, onun işçilərinin əmək haqının adekvat şəkildə artırılmasına mane olur və təbii ki, ağır əmək şəraiti hesab edilən neftçi əməyinin lazımınca qiymətləndirilməsinə əngəl törədir. Demək, müasir Azərbaycanda əməklə kapital arasında bir uyğunsuzluq mövcuddur və bunun nəticəsidir ki, istehsalın ən ağır sahələrindən biri olan mədən sənayesində neftçilər faktiki olaraq öz zəhmətlərinin bəhrəsini görmürlər. Bunun bariz nümunəsi şirkətin özünün ictimaiyyət üçün açıqladığı məlumatlardır. SOCAR-ın 2007-ci il üzrə bir qədər əvvəl dərc etdirdiyi hesabata əsasən, ötən il şirkət üzrə orta aylıq əməkhaqqı 443,6 manat olub və il ərzində neftçilərin əmək haqlarının artımı 25% təşkil edib. Bunun neftçilərin yaşayış səviyyəsinin yüksəldilməsinə elə bir əhəmiyyəti olmayıb. Çünki inflyasiya 2007-ci ildə Azərbaycanda alternativ hesablamalara əsasən 29%-ə yaxın olub."

Təqdimata görə, təkcə ötən il ərzində ARDNŞ-nin Sosial İnkişaf İdarəsində çalışanların sayı 1760 nəfər artıb: "Müqayisə üçün onu qeyd edək ki, 2007-ci ildə Milli Neft Şirkətimizin dənizdəki tikinti əməliyyatlarının əsas aparıcısı olan Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda işçi heyətin artımı cəmi 243 nəfər olmuşdu. Amma şirkətin mühafizə xidməti əməkdaşlarının sayı nə az, nə çox – düz 1399 nəfər artmışdır. Bununla belə, bəzi müəssisələrdə struktur dəyişikliyi nəticəsində işçilərin sayı azalmışdır. Məsələn, Geofizika və Geologiya İdarəsində 29 nəfər, "Azərneftyağ" NEZ-də 361 nəfər, H. Əliyev ad. BNEZ-də 140 nəfər, Marketinq və İqtisadi Əməliyyatlar İdarəsində 214 nəfər azalmışdır. Maraqlıdır, deyilmi? Neft və neft məhsullarının istehsalı və satışı sahələrində işçilərin sayı il ərzində 744 nəfər azalıb, əvəzində sosial sahə və təhlükəsizlik sistemindəki işçilərin sayı 3159 nəfər artıb. Bu, neft sənayesi üçün həddən artıq böyük bir rəqəmdir. Belə ki, hal-hazırda BP-Azərbaycan şirkətində çalışan işçilərin sayı xarici heyətlə birlikdə 1879 nəfər təşkil edir. Elə bu səbəbdən də BP-Azərbaycan şirkətində neftin maya dəyəri quyu ağzında 1 bareli üçün cəmi 2 ABŞ dollar, Milli Neft Şirkətimizdə isə bundan 4,6 dəfə çox olmuşdur. Bunu necə izah etmək olar ki, əgər 2006-cı il yanvarın 1-nə SOCAR-da

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

çalışanların ümumi sayı 58 min nəfərdən bir qədər artıq idisə, 2008-ci ilin müvafiq dövründə onların sayi 64 min nəfəri örtüb. Əvəzində Milli Neft Şirkətimizin hasilatı 2005-ci ilin yekunlarına görə 8 milyon 967 min ton idisə, 2007-ci ilin sonunda bu göstərici 7 milyon 606 min tona düşüb. Başqa sözlə, ümumi işçilərin sayının 6 min nəfərə yaxın artımı nəticəsində ARDNŞ-də neft hasilatı 1 milyon 361 min ton və ya 15%-dən çox aşağı düşüb. Görəsən, Azərbaycan hökumətində bu kimi faktlara niyə əhəmiyyət vermirlər?"

Müqayisələrə müraciət edən ekspert 2007-ci ildə Rusiyanın dövlət şirkəti "Qazpromneft"in 47 min nəfərlik personalla 32,7 milyon ton, bu ölkənin ən böyük özəl şirkəti sayilan LUKoylun isə 105 min nəfərlə 97 milyon ton neft hasil etdiyini bildirdi: "Rusiyanın bu neft şirkətlərində orta illik əməkhaqqı 22 min dollardan aşağı olmayıb, ARDNŞ-də işçilərin illik əməkhaqqı isə 6000 dollar ətrafında formalaşıb. Bəli, bu gün SOCAR-da əməkhaqqı respublika üzrə orta əməkhaqqından 1,5 dəfə çoxdur, ancaq günün tələbinə uyğun deyil." ARDNŞ-nin balansında olan 5500 nəqliyyat vasitəsinin 70%-nin normativ istismar müddətinin bitdiyini deyən İ.Şaban bu şəraitdə şirkətin dövlət sosial proqramlarında iştirak edərək, ayrı-ayrı sosial obyektlərin tikintisinə yüz milyonlarla manat xərcləməsinin yolverilməz olduğunu qeyd edib.

Bütün qeyd edilənləri nəzərə alan, Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi ARDNŞ-nin sosial xərclərinin effektivlyini artırmaq üçün təkliflər hazırlayıb. İctimai müzakirələrdən sonra təkliflər paket halında şirkətə təqdim olunacaq.

İ.Şabanın təqdimatından sonra Dəyirmi Masa müzakirələrlə davam etdirilib.

✵ ✵ ✵

## Neft gəlirləri ilə bağlı sorğu keçirilib

İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM) ABŞ-ın Şəffaflıq üçün Tərəfdaşlıq (Partnership for Transaprency) Fondunun dəstəyi ilə həyata keçirdiyi layihə çərçivəsində hökumət qurumları, şirkətlər və əhali arasında sorğu keçirib. Sorğunun əsas məqsədi neft pullarının xərclənməsinə müxtəlif kateqoriyadan olan insanların rəyinin öyrənilməsi olub.

Dövlət qurumları arasında keçirilən sorğunun məqsədi həmin qurumların neft pullarının xərclənməsinə münasibətini öyrənmək və eləcə də bu vəsaitlərdən istifadə edənlərin şəffaflıq dərəcəsini yoxlamaq olub. Bu məqsədlə sorğu sualları 9 dövlət təşkilatına göndərilib (Nəqliyyat Nazirliyi, Qaçqın və Məcburi Köçkünlərin İşi Üzrə Dövlət Komitəsi, Yanacaq və Enerji Nazirliyi, "Azərtikinti" Səhmdar Cəmiyyəti, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət İnvestisiya Şirkəti). Onlardan 6-sı Mərkəzin məktubuna cavab verib ki, bunlardan da 2-si ARDNF vəsaitlərindən istifadə etdiklərini əsas gətirməklə suallara cavab verməkdən imtina ediblər.

*"Neft gəlirlərindən istifadə sahəsində şəffaflığı necə qiymətləndirirsiniz"* sualına sorğunu cavablandıran dövlət təşkilatlarının hamısı *"Neft pulları tam şəffaf xərclənir"* cavabını vermişdir.

*"Öz fəaliyyətinizlə bağlı ictimaiyyəti məlumatlandırmaqda maraqlısınızmı"* sualına bütün dövlət təşkilatlarını cavabı müsbətdir.

*"Dövlət orqanlarının öz fəaliyyətlərində şəffaflığı təmin etmək üçün daxili normativlər varmı"* sualına da dövlət qurumlarının cavabı müsbət olmuşdur. *"Təşkilatınız hər hansı formada mədən sənayesində şəffaflıq təşəbbüsləri kampaniyasına qoşulubmu?"*

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

33,3 faiz kampaniyada fəal iştirak etdiyini, 33.3 faiz kampaniya ilə bağlı məlumatı olmadıqlarını bildirib. Qalanları isə cavab verməkdə çətinlik çəkdiklərini qeyd ediblər.

*"Mədən sənayesində fəaliyyət göstərən xarici şirkətlərin fəaliyyətini necə qiymətləndirirsiniz"* sualına rəyi öyrənilən dövlət qurumlarının 33.3 faizi *"Tam şəffaf fəaliyyət göstərirlər"* cavabını vermişdir. Digər respondent təşkilatlar bu suala cavab verməkdə çətinlik çəkdiklərini qeyd etmişlər.

*"Sizcə, ictimaiyyətin neft gəlirləri ilə məlumatlılıq səviyyəsi necədir"* sualına cavab verən şirkətlərin 70 faizi *"İctimaiyyətin neft gəlirlər ilə bağlı məlumatlılıq səviyyəsi çox yüksəkdir"* cavabını vermişdir. Respondent təşkilatların 30 faizi isə bu suala cavab verməkdə çətinlik çəkdiklərini bildirmişlər.

Şirkətlər arasında keçirilən sorğunun məqsədi bu sektorda çalışan həm xarici, həm də yerli şirkətlərin neft gəlirlərindən necə istifadə edilməsinə münasibətini öyrənməkdən ibarət olmuşdur. Sorğu sualları 15 şirkətə göndərilsə də, onlardan yalnız 7-i müvafiq məktubu, onlardan 5-i isə sorğu suallarını cavablandırmışdır.

*"Şirkətlərin ölkədəki QHT və KİV ilə əməkdaşlığının səviyyəsi necədir"* sualına respondent şirkətlərin 25 faizi *"İctimaiyyətlə əlaqələr şöbəsi bu qurumlarla əməkdaşlıq edir"* cavabını vermişdir. Respondentlərin 50 faizi sözügedən qurumların heç biri ilə əlaqələrinin olmadığını, 25 faiz isə QHT-lərlə deyil, KİV-lə əməkdaşlıq etdiklərini bildiriblər. Respondentlərin heç biri *"QHT və KİV şirkətin tədbirlərinə dəvət edilir"* sualına müsbət cavab verməmişdir.

*"Şirkət ölkə daxilində həyata keçirdiyi əməliyyatların şəffaflığını təmin etməklə bağlı ictimai deklarasiyaya malikdirmi"* sualına rəyi öyrənilən respondentlərin 25 faizi müsbət cavab vermiş, 75 faiz isə bu sualla cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

*"Şirkətin Azərbaycandakı fəaliyyəti ilə bağlı müstəqil auditin nəticələri vaxtlı-vaxtında ictimaiyyətə açıqlanırmı"* sualına respondentlərin 25 faizi müsbət cavab versə də, digər 25 faiz ictimaiyyətə məlumat verilmədiyini, 50 faizi isə cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

*"Şirkət hökumətə ödənişləri ilə bağlı fərdi hesabatları ictimaiyyətə açıqlamağa maraqlıdırmı"* sualına respondentlərin 50 faizi neqativ cavab vermişdir. Respondentlərin 25 faiz bu suala müsbət cavab versə də, digər 25 faiz cavab verməkdə çətinlik çəkdiyini qeyd etmişdir.

*"Şirkətin hasilatın pay bölgüsü sazişlərindən gəlirləri ilə bağlı məlumatlar kommersiya sirri hesab olunurmu"* sualına respondentlərin 50 faizinin cavabı müsbət, 25 faizininki mənfi olub, digər respondentlər isə cavab verməkdə çətinlik çəkdiklərini qeyd ediblər

*"Şirkətin ölkəmizdəki fəaliyyəti ilə əlaqədar maliyyə əməliyyatları üzrə (əmək haqqı istisna olmaqla) nağd ödənişləri varmı"* sualına cavab verən respondentlərin təxminən 50 faizi nağd ödənişlərdən istifadə edir. Respondent şirkətlərin 25 faizinin bütün ödənişləri nağdsızdır. Qalan 25 faiz suala cavab verməkdə çətinlik çəkib. Həmin şirkətlərdə nağdsız ödənişlər bütün ödənişlərin 50 faizindən azdır.

*"Şirkətin nizamnaməsində və ya şirkətdaxili normativ sənədlərdə antikorrupsiya xarakterli normalar varmı"* sualına respondentlərin 75 faizi müsbət cavab versə də, 25 faizi cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

*"Şirkətlərin hökumətə ödədikləri vəsaitlərin ünvanlı istifadəsi barədə dolğun informasiya əldə etməkdə maraqlısınızmı"* sualına respondent şirkətlərin 75 faizi müsbət cavab vermişdir. Respondentlərin 25 faizi bu suala cavab verməkdə çətinlik çəkmişdir.

*"Hökumətə ödənilən vəsaitlərin ünvanlı istifadəsi barədə dolğun informasiya əldə etmək imkanlarınız varmı"* sualına respondentlərin heç biri müsbət cavab verməmişdir. Respondentlərin yarısı belə imkanlarının olmadığını, digər 50 faizi isə bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

*"Şirkətin hökumət və ya onun qurumları ilə münasibətlərində problemlər yaranırmı"* sualına isə respondentlərin hamısı heç bir problemlərinin olmadığını qeyd etmişdir.

*"Şirkət ölkəmizdəki fəaliyyəti ilə əlaqədar korrupsiya halları ilə rastlaşırmı"* sualına respondentlərin 75 faizi cavab verməkdə çətinlik çəkdiyini, 25 faiz isə belə faktlarla rastlaşmadığını qeyd etmişdir.

*"Azərbaycan hökumətinin neft-qaz gəlirlərinin şəffaflığının təmin edilməsi sahəsindəki fəaliyyəti barədə məlumatlılığınız necədir"* sualına cavab verənlərin 75 faizinin bu barədə müəyyən qədər, 25 faizinin isə ətraflı məlumatı var.

*"Hökumətin neft gəlirlərində şəffaflığın qorunması istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz"* sualını cavablandıran respondent şirkətlərin 50 faizi bu fəaliyyəti yüksək qiymətləndirsə də, qalan yarısı orta qiymətləndirmişdir.

*"Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü çərçivəsində ölkədəki QHT Koalisiyasının fəaliyyəti barədə məlumatlısınızmı"* sualına respondentlərin 75 faizinin cavabı müsbət olmuş, 25 faiz isə heç bir məlumata malik olmadığını qeyd etmişdir.

*"QHT-lərin neft gəlirlərində şəffaflığın qorunması istiqamətindəki fəaliyyətini necə qiymətləndirirsiniz"* sualını cavablandıran respondentlərin yarısının qiyməti yüksəkdir. Respondentlərin 25 faizi bunu orta qiymətləndirsə də, digər 25 faizi suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

Əhali arasında keçirilən sorğu neft gəlirlərinin xərclənməsi ilə bağlı ictimai məlumatlılıq səviyyəsini müəyyənləşdirmək məqsədi daşıyıb. Bu məqsədlə sorğuya əhalinin ən müxtəlif təbəqələrinin nümayəndələri cəlb edilib. Sorğuda iştirak edən 500 respondentin 80 faizi ali təhsilə, qalanı isə orta təhsilə malikdir.

*"Dövlət Neft Fondunun gəlirləri ilə bağlı məlumatlısınızmı"* sualına sorğuya cəlb edilən respondentlərin 54 faizi *"xeyr"*, 29 faizi *"bəli"* cavabını vermiş, 17 faiz isə bu suala cavab verməkdə çətinlik çəkmişdir.

*"Dövlət Neft Fondunun vəsaitlərinin necə xərclənməsi ilə bağlı məlumatınız varmı"* sualını 63 faiz mənfi, 19 faiz müsbət cavablandırıb. Qalan 19 faiz isə bu suala cavab verməkdə çətinlik çəkdiyini qeyd edib.

*"Dövlət Neft Fondunun 2008-ci il üçün təsdiq edilmiş gəlir və xərclərini qeyd edə bilərsinizmi"* sualına 81,43 faiz mənfi, 2,86 faizi müsbət cavab vermiş, 15,71 faizi isə bu suala cavab verməkdə çətinlik çəkmişdir.

*"Sizcə neft gəlirləri şəffaf xərclənirmi"* sualını cavablandıran respondentlərin 81 faizi belə düşünmür. Gəlirlərin şəffaf xərcləndiyini düşünənlər isə respondentlərin 9 faizini təşkil edir. Qalan 10 faiz bu suala cavab verməkdə çətinlik çəkib.

*"Sizcə, neft gəlirləri səmərəli xərclənirmi"* sualına isə respondentlərin cəmi 7 faizi müsbət cavab verib. Rəyi öyrənilənlərin 81 faizi gəlirlərin səmərəli xərclənmədiyi qənaətindədir, 12 faizi isə bu suala cavab verməkdə çətinlik çəkib.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

*"Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilən layihələrlə bağlı hər hansı, ümumi, maliyyə və s. hesabatları ilə tanışsınızmı"* sualını cavablandıran respondentlərin 79 faizi belə hesabatlarla tanış olmadığını bildirib. Rəyi öyrənilənlərin 9 faizi belə hesabatlarla tanışdır, 13 faizi isə sualı cavablandırmaqda çətinlik çəkib.

✵ ✵ ✵

## Koalisiyanın sorğuları cavablandırılıb

İyunun 17-də Memorandum tərəfləri ilə görüşdə Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının təklifi ilə Hökumət Komissiyasının rəhbəri, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov şirkətlərə onların fərdi hesabatlılğa keçidə münasibətləri ilə bağlı müraciət ediləcəyini bildirmişdi. Avqustun 8-də Koalisiya müraciətin nəticələrinə dair məlumat almaq məqsədilə Ş.Mövsümova sorğu göndərib.

Avqustun 13-də MŞHT üzrə katibliyin rəhbəri A.Məmmədovun sorğuya cavab verərək fərdi hesabatlılıqla bağlı 25 tərəfdaş şirkətə müraciət olunduğunu, həmin tarixə (avqustun 13-nədək) 13 şirkətdən cavab alındığını bildirib. Bununla bağlı Koalisiyanın əlaqələndiricisi Qubad İbadoğluna göndərilən məktubda 9 şirkətin fərdi hesabatlılığa razı olmadığı, 5-nin razı olduğu, 1-nin isə bütün şirkətlər razılaşdığı təqdirdə bu prosesə qoşulacağını bldridiyi qeyd olunur. Bu cavabla bağlı Koalisiya Şurası üzvləri arasında aparılan müzakirələrdən sonra Hökumət Komissiyasına razı və narazı şirkətlərin adlarının açıqlanmasına dair təkrar müraciət olunması qərara alınıb və müvafiq sorğu göndərilib.

Bundan əlavə, avqustun 5-də Koalisiyanın ekspert qrupu tərəfindən DNF-yə "Azəri-Çıraq-Günəşli" yatağının işlənməsi layihəsi üzrə mənfəət neftinin bölüşdürülmə mexanizminə dair sorğu göndərilmişdi. Həmin sorğu da Fond tərəfindən cavablandırılıb. Bu məsələ ilə bağlı Koalisiyanın ekspert qrupu xüsusi rəy hazırlayacaq.

✵ ✵ ✵

## EİTİ İdarə Heyətinin iclası keçirilib

Mayın 26-27-də İspaniyanın paytaxtı Madrid şəhərində Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə İdarə Heyətinin növbəti iclası keçirilib. Azərbaycanı İdarə Heyətində MHŞT üzrə hökumət Komissiyasının sədri, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov təmsil edir.

Ş.Mövsümov iclasda Azərbaycan hökuməti tərəfindən BMT-nin Baş Assambleyasına təqdim edilən Şəffaflıq Təşəbbüsünü dəstəkləyən qətnamə layihəsi barədə məlumat verib. O, qətnaməyə qarşı gözlənilməz təpki ilə üzləşildiyini qeyd edib və bunun iki arqumentlə əsaslandırıldığını vurğulayıb. Bunlarda birincisi, mineral ehtiyatlara malik inkişaf etmiş dövlətlərin EİTİ çərçivəsində hesabatlılığa qoşulmamalarıdır. Bu arqumenti irəli sürən dövlətlər əsasən neft-qaz ehtiyatları ilə zəngin olan Norveçin prosesə aktiv qoşulmamasını irad kimi səsləndirirlər. İkinci arqument isə budur ki, qətnaməyə qarşı çıxan inkişaf etməkdə olan ölkələr EİTİ-ı öz ehtiyatları və gəlirləri üzərində nəzarət sisteminin qurulması kimi qəbul edirlər. Azərbaycan tərəfi İdarə Heyətindən, həmçinin EİTİ-a qoşulan ölkələrdən dəstək gözlədiyini açıqlayıb. Müzakirələrdən sonra Nigeriya qətnamənin əleyhinə çıxan Afrika dövlətlərinə təsir göstərməyi öz üzərinə götürüb. Heyətin vətəndaş cəmiyyətindən olan üzvləri də bu sektor vasitəsilə dəstəyi əsirgəməyəcəklərini bildiriblər.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

İclasda müzakirə olunan digər məsələ Dünya Bankının mineral ehtiyatların hasilatından əldə olunan gəlirlərin xərclənməsi prosesinin də EİTİ-ya cəlbini nəzərdə tutan "EİTİ++" təşəbbüsü olub. İH üzvlərinin bir çoxu, Azərbaycanın nümayəndəsi də daxil olmaqla, xərclərin şəffaflığı məsələsinin yaxşı ideya olduğunu vurğulasalar da, EİTİ-ın bu prosesə cəlbini "məqsədəuyğun" saymayıblar.

İclas zamanı verilən məlumatdan aydın olub ki, Fransa hökuməti EİTİ-ı dəstəkləmək üçün 250 min dollar ayırıb.

İdarə Heyətinin qərarı ilə növbəti iclas 29-30 oktyabrda Afinada – Beynəlxalq Antikorrupsiya Konfransından əvvəl keçiriləcək.

✵ ✵ ✵

## Neft Fondunun 2007-ci il büdcəsinin xərcləri kəsirlə icra olunub

İyunun 27-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, iclasda baş nazir A.Rasizadə 2008-ci il üzrə Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri seçilib.

Şuranın toplantısında Fondun 2007-ci ildəki fəaliyyəti haqqında illik hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, ARDNF-nin 2007-ci il büdcəsinin icrası, Fondun 2008-ci il büdcəsində dəyişikliklərin edilməsi məsələlərinə baxılıb. Müşahidə Şurası Neft Fondunun icraçı direktorunun təqdim etdiyi 2007-ci ildəki fəaliyyətə dair illik hesabatına, Fondun 2007-ci ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun ("Deloyt ənd Tuş" şirkətinin) hesabatına baxaraq onları məqbul saymış və Fondun 2007-ci il büdcəsinin icrası layihəsini təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim etmək barədə qərar qəbul etmişdir.

Müşahidə Şurası həmçinin Fondun 2008-ci il büdcəsinə edilən dəyişiklikləri də məqbul sayaraq, onların təsdiq olunmaq üçün Prezidentə təqdim olunmasını qərara alıb. İyulun 11-də isə Prezident ARDNF-nin 2007-cı il büdcəsinin icrasını təsdiqləyən sərəncam imzalayıb. Sərəncama uyğun olaraq, Neft Fondunun 2007-cı il büdcəsinin **1 886 164,8** min manat və ya 21,2% artıq gəlirlə, xərclərinin **1 061 203,5** min manat və ya 4,9% kəsirlə icrası təsdiq edilib.

✵ ✵ ✵

## Neft Fondunun xərcləri sürətlə artırılır

İyulun 11-də dövlət başçısı İlham Əliyev Dövlət Neft Fondunun 2008-ci il büdcəsində dəyişikliklər və əlavələr edilməsi haqqında fərman imzalayıb.

Fərmana əsasən, Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin gəlirləri 10 milyard 144 milyon 743 min 200 manat, xərcləri isə 4 milyard 380 milyon 853 min 600 manat həcmində müəyyənləşdirilib.

Qeyd edək ki, «Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin təsdiq edilməsi haqqında» prezidentin 2007-ci il dekabrın 26-da imzaladığı fərmanda fondun 2008-ci il büdcəsi üçün gəlirlər 3 milyard 609 milyon 361 min manat, xərclər isə 1 milyard 680 milyon 853 min 600 manat həcmində müəyyənləşdirilmişdi.

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

Dövlət başçısının son fərmanı ilə Neft Fondunun gəlir mənbələri sırasına xam neftin ixrac qiyməti üzrə Dövlət Neft Fonduna köçürülən yığımlar da əlavə edilibb və bu yığımlar 70 milyon 623 min 100 manat həcmində müəyyənləşdirilib.

Eyni zamanda digər gəlir mənbələrinin həcmi artırılıb və aşağıdakı kimi olub:

- Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) – 9 milyard 819 milyon 516 min manat (prezidentin 2007-ci il 26 dekabr tarixli fərmanında bu rəqəm 3 milyard 473 milyon 109 min 600 manat idi);
- Neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına düşən dividendlər (BTC layihəsi üzrə) – 104 milyon 806 min manat (əvvəlki fərmanda 13 milyon 423 min 200 manat idi);
- Dövlət Neft Fondunun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər – 148 milyon 898 min 100 manat (121 milyon 928 min 200 manat idi);
- Digər gəlirlər və daxilolmalar – 900 min manat (elə bu qədər idi).

Prezidentin fərmanına görə, Dövlət Neft Fondunun 2008-ci il büdcəsindən Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsinə transfert 3 milyard 800 milyon manat olmalıdır. 2007-ci il 26 dekabr tarixli fərmanda isə transfertin 1 milyard 100 milyon manat olması nəzərdə tutulmuşdu.

ARDNF-nin büdcəsinə edilən dəyişikliklər, daha doğrusu, onun xərclərinin dəfələrlə artırılmasını Koalisiyanın ekspertləri birmənalı qarşılamırlar. Məsələn, neft sənayesi üzrə mütəxəssis İlham Şabanın fikrincə, ARDNF-nin xərclərinin bu cür artımı onun “fəlsəfəsinin” ziddinə deyil: “2008-ci ildə təkcə “Azəri-Cıraq-Günəşli” yatağı üzrə bağlanmış hasilatın pay bölgüsü üzrə sazişdən gələn gəlir 20 milyard dolları keçəcək. Bu ilki xərclər isə 5 milyard dollar civarındadır. Yəni bu il Fondun gəlirinin haradasa 25 faizi xərclənəcək. 2004-cü ildə Prezidentin imzaladığı sərəncama gorə, ARDNF-nin gəlirlərinin 75 faizi xərclənə bilər. Bu isə o deməkdir ki, bu cür sürətli xərclər üçün hüquqi zəmin çoxdan yaradılıb.”

Koalisiya üzvü, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov isə diqqəti ARDNF-nin gəlirlərinə yönəltməyin tərəfdarıdır: “Fondun gəlir artımının 90 faizdən yuxarısı hasilatın pay bölgüsü sazişlərindən əldə edilir. Vəsaitlərin idarə olunmasından əldə edilən gəlirlər isə çox cüzidir – 10 milyard 144 milyon manatlıq gəlirin cəmi 148,8 milyon manatı. Prezident fərmanından da görünür ki, ilin əvvəlində vəsaitlərin idarə olunmasından əldə olunacaq məbləğin təxminən 15 faiz təşkil edəcək artımı ümumi vəsaitlərin artımı ilə bağlıdır, nəinki onların daha səmərəli idarə olunmasıyla. Bu, o deməkdir ki, Fond vəsaitləri heç də səmərəli idarə olunmur.”

## Qazın maya dəyəri azalıb, neftinki isə artıb

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) istehsal etdiyi əmtəə qazı və xam neftin maya dəyərinin tərkibinə dair məlumatları açıqlayıb. Şirkətin yekun hesabatına görə, əmtəə qazının tam maya dəyəri 2006 -cı ildə 99 mln. manata qarşı 2007- ci ildə 147,8 mln. manat

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

təşkil edib. 1 min kubmetr qaz hasilatının maya dəyəri 2006 -cı ildəki 27,75 manata qarşı 25,5 manat təşkil edib.

2007-ci ildə Şirkət üzrə qaz hasilatına çəkilən cəmi xərclərin tərkibində əmək haqqı xərclərinin xüsusi çəkisi 12,3%, sosial ehtiyaclara ayırmalar - 2,9%, amortizasiya ayırmaları - 28,6%, material xərcləri - 16,0%, mədən vergisi - 19,3%, torpaq vergisi - 0,9% təşkil edib. Hesabatda deyilir ki, mədən vergisi (royaliti) 21,0% artsa da, əmtəəlik hasilat 37,3% artıb. Bu, (yanacaq-enerji və əmək haqqı xərclərinin əhəmiyyətli artmasına baxmayaraq) qazın maya dəyərinin kəskin qalxmasının qarşısını alıb.

ARDNŞ -nin məlumatına əsasən, qazın istehsalı üzrə əmək haqqı və sosial ayırmalar 8620 min manat (49,8 faiz), enerji xərcləri 2760 min manat (96,8%), yanacaq xərcləri 3896 min manat (58,7%) artıb.

***Qaz hasilatına çəkilən xərclər (min. manat)***
***Gas production costs (ths manat)***

| Xərc bəndləri Expense items | 2007 | Xüsusi çəki Percent age | 2006 | Xüsusi çəkiPercentage |
|---|---|---|---|---|
| Materiallara çəkilən xərclər Material costs | 27185 | 16 | 17412 | 15,2 |
| o cümlədən: | | | | |
| including: | | | | |
| - Yardımçı materiallar- Supplementary materials | 11040 | 6,5 | 7923 | 6,9 |
| - Yanacaq- Fuel | 10,534 | 6,2 | 6638 | 5,8 |
| - Enerji - Energy | 5611 | 3,3 | 2851 | 2,5 |
| Əmək haqqıSalary | 20942 | 12,3 | 13982 | 12,3 |
| Sosial sığorta ayırmaları Deductions on social insurance | 4952 | 2,9 | 3292 | 2,9 |
| Amortizasiya ödəmələri Depreciation charges | 48802 | 28,6 | 35009 | 30,7 |
| Digər xərclər Other costs | 68620 | 40,2 | 44354 | 38,9 |
| o cümlədən: | | | | |
| including: | | | | |
| - Mədən vergisi- Royalty | 32880 | 19,3 | 13093 | 11,5 |
| - Torpaq vergisi- Land tax | 1663 | 0,9 | 1049 | 0,9 |
| - Digər xərclər - Other costs | 34077 | 20 | 30212 | 26,5 |
| Ümumi məhsul istehsalının maya dəyəri Prime cost of total production | 170501 | 100 | 114049 | 100 |
| İstehsalın daxili dövriyyəsinə çəkilən xərclər Production turnover costs | 22686 | | 15090 | |
| Əmtəə məhsulunun tam maya dəyəri Full prime cost of trade product | 147815 | | 98959 | |
| 1000 kub.m qazın maya dəyəri, manat Prime cost of of gas, manat | 27,75 | | 25,5 | |
| Əmtəə istehsalı, 1000 kub m.Trade production, | 5327069 | | 3880910 | |

Şirkətin əmtəə neftinin tam maya dəyəri 2006 -cı ildəki 377,9 mln. manata qarşı 2007-ci ildə 436,3 mln. manat təşkil edib. Bir ton neftin maya dəyəri 2006 -cı ildəki 48,57 mln. manata qarşı 57,74 mln. manat olub. İstehsala çəkilən ümumi xərclərin 17,2 faizi əmək

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

haqqının, 4,2 faiz sosial ehtiyacın, 18 faiz – amortizasiya, 17,3 faiz materiallara çəkilən xərclərin, 19,9 faiz mədən vergisi (royaliti), 1,3 faiz torpaq vergisinin payına düşüb.

Hesabatda bildirilir ki, maya dəyərinin artması, ilk növbədə, istehsalın maya dəyərinin (royalitisiz) 36,5 faiz artması və əmtəə hasilatının 2,9 faiz azalması hesabına baş verib. 2007-ci ildə elektrik enerjisinin dəyəri də nəzərəçarpacaq dərəcədə - 6,7 mln. manat (53,4 faiz), yanacaq – 4,6 mln. manat (30,5 faiz), əmək haqqı (sosial ödəmələrlə birlikdə) – 23,5 mln. manat (35,1 faiz) artıb.

Elektrik enerjisi və yanacağa çəkilən xərclər gözlənilən olub. Belə ki, bu ilin əvvəlində elektrik enerjisi və neft məhsullarının daxili qiymətləri nəzərəçarpacaq dərəcədə artıb. Əmək haqqının artırılması bütün şirkət üzrə həyata keçirilib. 2004 -cü ildə neftin maya dəyərində əmək haqqının xüsusi çəkisi 10,6 faiz təşkil edib. 2005-ci ildə bu göstərici 12,9 faiz, 2006 -cı ildə 14,8 faiz və 2007-ci ildə 17,2 faizədək artıb.

***Neft hasilatına çəkilən xərclər (min manat)***
***Oil production costs (ths manat)***

| Xərc bəndləri Expense items | 2007 | Xüsusi çəki Percent age | 2006 | Xüsusi çəkiPercentage |
|---|---|---|---|---|
| Materiallara çəkilən xərclər Material costs | 73019 | 17,3 | 65764 | 17,9 |
| o cümlədən: | | | | |
| including: | | | | |
| - Yardımçı materiallar- Supplementary materials | 33948 | 8,0 | 38025 | 10,4 |
| - Yanacaq- Fuel | 19827 | 4,7 | 15196 | 4,1 |
| - Enerji - Energy | 19244 | 4,6 | 12543 | 3,4 |
| Əmək haqqıSalary | 72576 | 17,2 | 54334 | 14,8 |
| Sosial sığorta ödəmələri Deductions on social insurance | 17751 | 4,2 | 12674 | 3,5 |
| Amortizasiya ödəmələri Depreciation charges | 76243 | 18 | 63092 | 17,2 |
| Digər xərclər Other costs | 183380 | 43,3 | 170599 | 46,6 |
| o cümlədən: | | | | |
| including: | | | | |
| - Mədən vergisi- Royalty | 84092 | 19,9 | 86650 | 23,6 |
| - Torpaq vergisi- Land tax | 5637 | 1,3 | 3774 | 1 |
| - Digər xərclər - Other costs | 93651 | 22,1 | 80175 | 21,9 |
| Ümumi məhsul istehsalının maya dəyəri Prime cost of total production | 422969 | 100 | 366463 | 100 |
| İstehsalın daxili dövriyyəsinə çəkilən xərclər Production turnover costs | 5086 | | 4417 | |
| Başa çatmamış istehsal Unfinished production | 345 | | 487 | |
| Əmtəə məhsulu istehsalının maya dəyəri Prime cost of trade goods production | 417538 | | 361559 | |
| Kommersiya xərcləri Commercial expenses | 18778 | | 16375 | |

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

| | | | | |
|---|---|---|---|---|
| Əmtəə məhsulunun tam maya dəyəri Full prime cost of trade product | 435316 | | 377934 | |
| 1 ton neftin maya dəyəri, manat Prime cost of 1 ton of oil, manat | 57,74 | | 48,57 | |
| Əmtəə hasilatı, ton Trade production, tons | 7556411,4 | | 7780979,5 | |

***

# bp şirkəti Rusiyada problemlə üzləşib

bp şirkəti Tümen Neft Kompaniyasındakı (TNK-bp) tərəfdaşları olan 4 Rusiya milyarderinə - Mixail Fridman, Viktor Vekselberq, Leonard Blavatnik və Herman Xana qarşı London Ali Məhkəməsində iddia qaldırıb. Böyük Britaniyanını "The Sunday Times" qəzetinin məlumatına görə, şirkətin iyulun əvvəllərində məhkəməyə təqdim etdiyi iddiada TNK-bp-nin səhmlərinin 50 faizinə sahib olan bu şəxslərin şirkətin yaradıldığı 2003-cü ildən bəri bp-yə 360 milyon dollarlıq borcu yarandığı qeyd edilib. Borcun isə biznesmenlərin şirkətdəki maraqlarını təmsil edən AAR ("Alfa-Qrup", "Aksess İndastriss" və "Renova-Qrupp") konsorsiumunun 2003-cü ildə tərəflər arasında imzalanmış vergi zəmanətləri haqqında sazişə əməl etməmələri üzündən meydana çıxdığı bildirilir. Qarşı tərəfin yaydığı açıqlamada isə borca dair rəqəmin şişirdildiyi iddia olunur. Rusiyalı səhmdarlar da bp-yə qarşı qarşılıqlı iddia qaldıracaqlarını bəyan ediblər.

Qeyd edək ki, bp TNK-nın səhmlərinin 50 faizini Rusiya milyarderlərindən 6 milyar dollara alıb. Alqı-satqı müqaviləsi Rysiya prezidentui Vladimir Putin və Böyük Britaniyanın baş naziri Toni Bleyerin iştirak etdiyi mərasimdə imzalanıb. Sonrakı illərdə yaradılan maneələr üzündən 2006-cı ildən etibarən TNK-bp-nin neft hasilatı və emalı azalmağa başlayıb. Nəticədə şirkətin dəyəri 2005-ci ildəki 56 milyard dollardan 2008-ci ilin iyununa 34 milyard dollara düşüb.

Bu ilin əvvəlində Rusiyalı tərəfdaşlar bp-nin TNK-bp-dəki nümayəndəsi, həm də şirkətin icraçı direktoru olan Robert Dadlinin istefasını tələb etsələr də, buna nail ola bilməyiblər. Martda Rusiya hüquq-mühafizə orqanları TNK-bp-nin bir əməkdaşını Böyük Britaniya xüsusi xidmət orqanlarının xeyrinə casusluqda ittiham edərək, həbsə alıb, şirkətin ofisində axtarış aparıblar. Rəsmi məlumatlarda axtarışın guya həmin əməkdaşın "Qazprom"un Ukrayna ilə apardığı məxfi danışıqlara dair topladığı materialların götürülməsi üçün aparıldığı bildirilirdi. Eyni vaxtda Rusiya vergi orqanları TNK-nın 2000-ci ilə qədərki müddətdə vergidən yayınmasına dair faktlar əldə etdiklərini açıqlayıblar. Mayın sonları-iyunun əvvəlində isə Mixail Fridman, Viktor Vekselberq, Leonard Blavatnik və Herman Xan R.Dadlinin şirkətin icraçı direktoru vəzifəsindən azad olunması tələbini irəli sürüblər. Bu tələbi qəbul etməyən bp-nin cavabı London məhkəməsinə müraciət oldu.

Maraqlıdır ki, Rusiya milyarderləri bp-yə borclu olduqlarını etiraf edirlər. Belə ki, AAR-ın icraçı direktoru Sten Polovets bildirib ki, "son 12 ayda AAR bp ilə ona borclu olduğu məbləği dəqiqləşdirmək üçün müntəzəm danışıqlar" aparıb. Buna görə də onlar məsələnin məhkəmə yolu ilə həll variantını "arzu etməyiblər": "Bu məsələ ilə bağlı çoxlu sayda yazışmalar və şifahi danışıqlar aparılıb. Vergi zəmanətləri haqqında saziş üzrə öhdəliklərlə əlaqədar razılığa gəlmək üçün consensus variant da təklif edilib. Biz bp-nin

AZ1065, Bakı, C. Cabbarlı küçəsi 44, Caspian Plaza 3, 9-cü mərtəbə
Tel: 598 44 31, Faks: 598 44 31 Mob.: 357 04 62 E-mail: office@eiti-az.org

məsələni danışıqlar yolu ilə həll etmək əvəzinə məhkəmədə ciddi şəkildə şişirdilmiş məbləğlə iddia qaldırmasından çox təəccüblənmişik."

London məhkəməsindəki iddia barədə rəsmi məlumat açıqlanandan 5 gün sonra Rusiya Federal Vergi Xidməti TNK-bp-yə qarşı vergi iddiaları qaldırıb. İddia 2006-2007-ci illərdə şirkətin xarici əməkdaşları və Böyük Britaniyadan ezam olunmuş nümayəndələr üzrə əmək haqqından vergilərin hesablanması ilə bağlıdır. İddialar şirkətin yalnız 2003-cü ildən bəri deyil, bütün fəlaiyyəti dövrünü əhatə edir. Artıq 2003-ə qədərki dövrdəki vergi yayınmalarına görə şirkət dövlətə 8,5 milyard rubl ödəməli olub. Bp bu məbləği Rusiyalı səhmdarlardan almağa çalışır, çünki yayınma onun fəlaiyyətə başladığı dövrdən əvvəl olub. Vergi xidmətinin 2003-2005-ci illər üzrə hesabladığl 6 milyard rublluq yayınma iddiasını isə bp, ümumiyyətlə, qəbul etmir.

Vergi iddiası ilə yanaşı TNK-bp Rusiya Əmək Müfəttişliyi tərəfindən əmək qanunvericiliyini pozmaqda ittiham edilərək 41 min rubl cərimə olunub.